

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*


**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 136 (24.273)

*1 avqust 2023-cü il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı.

Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı – Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

30 illik işğal dövründə Ermənistan tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz viran edilmiş, mədəni irsimizə böyük zərbə vurulmuş, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz dağıdılaraq vandalizmə məruz qalmışdır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Vətən müharibəsində əldə olunmuş tarixi qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə **qərara alıram:**

1. Hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunsun:

26 avqust – Laçın şəhəri günü
4 oktyabr – Cəbrayıl şəhəri günü
17 oktyabr – Füzuli şəhəri günü
20 oktyabr – Zəngilan şəhəri günü
25 oktyabr – Qubadlı şəhəri günü
8 noyabr – Şuşa şəhəri günü
20 noyabr – Ağdam şəhəri günü
25 noyabr – Kəlbəcər şəhəri günü.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 31 iyul 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitə iclasları keçirilib

İyulun 31-də Ali Məclis sədrinin birinci müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin sədri Azər Zeynalovun sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilib.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin sədr müavini, 6 üzvü, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov, maliyyə nazirinin müavini Həsən İsmayılov və Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Naim Cahidzadə iştirak edib.

İclasda "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi, "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi və "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi müzakirə olunub.

Müzakirələrdən sonra büdcə layihələrinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasına təqdim olunması üçün qərar qəbul edilib.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komitəsinin sədri Hacıfəxrəddin Səfərlinin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komitəsinin iclası keçirilib.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komitəsinin 5 üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov iştirak edib.

İclasda "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun qəbul edilməsi, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun qəbul edilməsi və "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun qəbul edilməsi müzakirə olunub.

Müzakirələrdən sonra qanun layihələrinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasına təqdim olunması üçün qərar qəbul edilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2009-cu il 13 oktyabr tarixli, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" 2011-ci il 7 fevral tarixli qərarlarına dəyişiklik edilmişdir.

Nazirlər Kabinetinin 2023-cü il 5 iyul tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası ərazisində dövlət balansına alınmış qeyri-filiz faydalı qazıntı yataqları üzrə geoloji təftiş işlərinin aparılmasının, həmin yataqların qalıq ehtiyatlarının hesablanmasının, yeraltı suların monitorinqlərinin keçirilməsinin zəruriliyi nəzərə alınaraq "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən Naxçıvan Muxtar Respublikası üzrə geoloji-kəşfiyyat işlərinin Dövlət Sifarişi" təsdiq edilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin 2023-cü il 19 iyul tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin hərbi rütbəyə görə aylıq vəzifə maaşlarına əlavənin müəyyən edilməsi haqqında" Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli Qərarı ləğv edilmişdir.

Nazirlər Kabinetinin 2023-cü il 21 iyul tarixli Qərarı ilə "Naxçıvan Beynəlxalq Hava Limanında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonun xidmətlərindən istifadə məsələləri haqqında" Nazirlər Kabinetinin 2021-ci il 12 noyabr tarixli Qərarında dəyişiklik edilmişdir.

Muxtar respublikada mobil cihazların qeydiyyata alınması ilə bağlı proseslərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 28 dekabr tarixli Qərarı ilə təsdiq edilmiş "Mobil cihazların qeydiyyatının aparılması Qaydası"na uyğun ölkə üzrə vahid formada həyata keçirildiyini nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mobil cihazların qeydiyyatının aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2012-ci il 17 yanvar tarixli Qərarı ləğv edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Postmüharibə dövrünün müharibəsi

### *Bu müharibədən qalib çıxmaq hələ uzun illər sürəcək*




Bu yaxınlarda Şuşa Qlobal Media Forumunda dövlət başçısı cənab İlham Əliyev misirli jurnalistin minalara bağlı ünvanladığı suala cavabında çox maraqlı faktlara toxundu. Ölkə rəhbəri bildirdi ki, müharibə bitəndən sonra minalar Azərbaycanda üç yüzdən çox insanın həyatına son qoyub və bu minaların partlaması işğaldan azad olunmuş ərazilərdə baş verməkdir. Bu isə müharibə cinayətidir. Azərbaycan ərazilərində hesablamalara görə bir milyondan çox minanın basdırıldığını qeyd edən dövlət başçısı Ermənistanın verdiyi mina xəritələrini mənasız xəritələr adlandıraraq onların heç 25 faizinin də dəqiq olmadığını xarici media nümayəndələrinin diqqətinə çatdırdı. Əslində isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bu cür vəziyyətin yaradılmasında 30 il ərzində oynadığı rol Azərbaycanın XXI əsrdə necə bir mina terroru ilə üz-üzə qaldığını bütün dünyaya göstərir.

İşğaldan azad olunmuş ərazilərdə basdırılmış minalar, əsasən, tamamilə dağıdılmış, yer üzündən silinmiş şəhər, qəsəbə və kəndlərdə, müdafiə xətlərində, Azərbaycan hərbçilərinin hücum ehtimalı hesab olunan yol və keçidlərdə, eləcə də digər yerlərdə qeydə alınmışdır. Nəzərə alsaq ki, bura həm də otlaqlar, əkin yerləri, meşə və dağ əraziləri də aiddir, o zaman minalı sahələrin miqyasını təsəvvür etmək çətin deyil. Hətta təmizlənən sahələrdə 2021-ci ildə – müharibədən sonrakı dövrdə Ermənistanda istehsal edilmiş minalara da rast gəlinib ki, bu da hənin minaların Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altında ərazilərimizə keçirildiyinin isbatıdır.

Minalar müharibə dövründə və ya şəraitində düşmənə qarşı istifadə olunan ən təsirli savaş metodlarından biridir. Əsasən, düşmən hücumlarının qarşısını almaq və ya gecikdirmək, müdafiə olunmaq kimi taktiki vasitələri özündə cəmləşdirən bu üsul indiyədək əksər müharibələrdə istifadə edilib. Birinci Qarabağ müharibəsindən başlayaraq Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində kütləvi şəkildə minalar yerləşdirməsi Azərbaycanı dünyada minalarla çirklənmiş ən qabaqcıl ölkələr sırasına çıxarıb. Hətta həmin ərazilərdə 2021-ci ildə – müharibədən sonrakı dövrdə istehsal edilmiş minalara da rast gəlinib ki, bu da Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilən Rusiya Sülhməramlı Qüvvələrinin nəzarəti altında keçirildiyinin isbatıdır. BMT-nin hesablamalarına bu gün dünya üzrə 70-dək ölkədə basdırılmış minaların ümumi sayı 100-120 milyon arasındadır. 1996-cı ildə BMT-nin təşəbbüsü ilə hazırlanmış minalardan təmizləmə əməliyyatları üçün beynəlxalq standartlarda ərazilərin təmizlənməsi keyfiyyətinə dair əsas tələb belədir: 20 santimetrədək qalınlığı olan torpaq təbəqəsinin 99,6 faizi mina və partlayıcı maddələrdən təmiz olmalıdır. Minaların təmizlənməsi isə, forumda da deyildiyi kimi, çox bahalı prosesdir. Məsələn, mütəxəssislərin fikrincə, bir minanın aşkar edilib zərərsizləşdirilməsi 1000-5000 dollar məbləğə başa gələ bilər.

Ərazilərin minalardan təmizlənməsi bir sıra şərtlərdən də asılıdır. Bura sahələrin relyefi, hava şəraiti, ərazilərin çirklilik səviyyəsi və sair daxildir. İşğaldan azad olunmuş yaşayış məntəqələrində minaların təmizlənməsinə ərazinin metal qırıntıları ilə çirklənməsinin də böyük təsiri var. Belə ki, mina axtaranların detektorları hər bir metal qırıntısına reaksiya verir və mina təmizləyən buna adekvat reaksiya verməlidir. Beləliklə, metal qırıntılarının çox olması mina təmizləmənin sürətini çox aşağı salır.

Digər bir məsələ isə minaların təmizlənməsinə sərf olunan vaxtdır. Ukraynalı hərbi ekspert Mixail Jiroxova görə, minalardan təmizləmə işinə sərf olunan vaxt müharibənin davam etdiyi müddətdən, təxminən, 5 dəfə çox olur. Misal üçün, Yuqoslaviyanın dağılmasından sonra öz ərazisinin bütövlüyü uğrunda müharibə aparmış Xorvatiyada ərazilərin minalardan təmizlənməsi 20 ilə başa gəlib, Mozambikdə isə bu işə 23 il sərf olunub.

Bu gün ölkəmizdə minalı ərazilərin təmizlənməsində xüsusi təlim görmüş itlərdən, robotlardan, dronlardan, eyni zamanda minatəmizləyən texnikalardan istifadə olunur. Artıq Azərbaycanda da, dövlət başçısının dediyi kimi, bu sahədə yeni şirkətlər yaradılıb. Ancaq reallıq ondadır ki, əvvəldə də dediyimiz kimi, əlimizdə dəqiq mina xəritələri olmadığından görülən bu işlər uzun müddət vaxtımızı alacaq. Bu isə, eyni zamanda böyük maliyyə vəsaiti deməkdir. Buna görə də, bu sahədə hələ uzun illər bizi təhlükə gözləyir. Ona görə də Prezident cənab İlham Əliyev forumda bir daha ölkə vətəndaşlarına müraciət edərək işğaldan azad olunmuş ərazilərdə ehtiyatlı olmağa, gedilməsi məhdudlaşdırılan sahələrə getməməyi tövsiyə etdi. Ölkə başçısının minalarla bağlı suala verdiyi cavablar həm də media mənsubları üçün bir istiqamət idi. Buradan o nəticə ortaya çıxır ki, Azərbaycanla Ermənistan arasında yaxın gələcəkdə sülh müqaviləsi bağlansa da, xalqımız uzun müddət mina çirkliliyindən əziyyət çəkəcək. Buna görə də Azərbaycan mediası daim bu məsələni diqqətdə saxlamalı, mövcud vəziyyət və işlərin gedişi ilə bağlı beynəlxalq media qurumları və təşkilatlar mütəmadi məlumatlandırılmalı, Ermənistana davamlı olaraq bu sahədə pressinq tətbiq edilməlidir. Çünki bu müharibədən qalib çıxmaq hələ uzun illər sürəcək.

**✍ Səbuhi HƏSƏNOV**

## Ədliyyə orqanlarında ilin altı ayının yekunları müzakirə edilib

*İyulun 31-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində ədliyyə orqanlarında 2023-cü ilin birinci yarısında görülən işlərə və qarşıda duran vəzifələrə dair kollegiya iclası keçirilib. Kollegiyanı Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, III dərəcəli dövlət ədliyyə müşaviri Daşqın Rəhimov açıb.*

Çıxışda ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq olunmuş “Heydər Əliyev İli” çərçivəsində Azərbaycan xalqının Ümummilli Liderinin 100 illik yubileyinin muxtar respublikanın ədliyyə orqanlarında da müxtəlif tədbirlərlə geniş qeyd edilməsindən bəhs olunub, əhalinin hüquq mədəniyyətinin artırılması və maarifləndirilməsi, hüquqi yardımın göstərilməsi məqsədilə görülən tədbirlər barədə məlumat verilib.

Nazir vətəndaşlara hüquqi yardım göstərilməsi məqsədilə rayon (şəhər) məhkəmələrinin inzibati binalarında “Açıq qapı” günlərinin keçirilməsinin də əhəmiyyətindən danışıb.



Qeyd edilib ki, bəhs olunan dövrdə Məhkəmə Ekspertizası Mərkəzində müxtəlif ekspertiza sahələri üzrə 644 ekspertiza işinin tədqiqatı aparılıb. Tədqiqatı aparılan ekspertizalar üzrə, ümumilikdə, 571 rəy, 35 ekspert arayışı verilib, 11 iş icrasız geri göndərilib, 3 işin icraatı vəsatət verildiyindən müvəqqəti dayandırılıb, 24 işin icrası növbəti hesabat dövrünə qalıq qalıb. Cari ilin birinci yarısında Nikah evləri və qeydiyyat şöbələri tərəfindən 4540 əməliyyat aparılıb və dövlət büdcəsinə 15232 manat dövlət rüsumu ödənilib.

Hesabat dövrü məhkəmə və digər orqanların qərarlarının düzgün və vaxtında icra olunması diqqətdə saxlanılıb. Yerli icra və probasiya qurumlarının icraatına 3368 icra sənədi daxil olub, bunlardan 964 iş tam icra edilib, 2155 iş icraya yönəlib, 130 iş geri qaytarılıb, 119 iş ərazi aidiyyəti üzrə göndərilib. Verilmiş təqdimatlar əsasında 4 borclunun barəsində cinayət işi başlanılıb. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə”yə uyğun olaraq daxil olmuş müraciətlər vaxtında qeydiyyata alınıb.

Bələdiyyə fəaliyyəti ilə əlaqədar aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq edilib, “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq bələdiyyə orqanlarından nazirliyə daxil olmuş bələdiyyə aktlarının hüquqi ekspertizası keçirilib.

Kollegiya iclasında görülən işlərlə yanaşı, ədliyyə orqanlarında yol verilmiş bəzi nöqsan və çatışmazlıqlar da müzakirə edilib, qarşıya qoyulan vəzifələr müəyyənləşdirilib. Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib, sonda nazirliyin kollegiya qərarı təsdiq olunub.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

*1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür*

## Dilimiz ən dəyərli mənəvi sərvətimizdir



*Hər bir xalqda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Türk dilləri ailəsinin oğuz qrupuna daxil olan Azərbaycan dilinin tarixi uzaq keçmişlərə söykənir. Ayrı-ayrı türk boy birləşmələrinin ümumi ünsiyyət vasitəsi olan bu dil IV-V əsrlərdən etibarən ümumxalq danışıq dili kimi işlənməyə başlamışdır.*

Azərbaycan dili dialekt və şivələrinin bütün Avrasiya məkanında yayılan türk xalqlarının dil xüsusiyyətləri ilə çox yaxın olmasının da başlıca səbəbi qədim dövrlərdən bu torpaqlarda etnik baxımdan eyniköklü türk etnoslarının yaşamasıdır. Şifahi xalq ədəbiyyatı nümunələri Azərbaycan şifahi ədəbi dilinin erkən formalaşması və təkamülü üçün zərurət yaratmışdır. Azərbaycan yazılı ədəbi dili məhz ümumxalq dili əsasında təşəkkül tapmışdır. Bu baxımdan “Kitabi-Dədə Qorqud” dastanı olduqca böyük əhəmiyyət kəsb etmişdir. Ölkəmizin ərazisində qədim əlifbaların mövcudluğu, həmçinin mükəmməl yazı dilimizin olması qaynağını uzaq keçmişdən alan Azərbaycan dilinin qədim tarixi köklərə malik olduğunun bir daha sübuta yetirir.

XVI əsrdə Səfəvilər dövlətinin yaranması ilə Azərbaycan dilinin mövqeyi möhkəmlənərək dövlət dili səviyyəsinə qalxmış, rəsmi və dövlətlərarası yazışmalarda işlədilmişdir. Səfəvilər dövründə Azərbaycan dili sarayda və orduda tam hakim mövqe tutaraq dövlət dili kimi rəsmiləşmişdi. XVII-XVIII əsrlərdə şifahi xalq ədəbiyyatının bədii dilə təsiri ilə inkişaf edən xalq şeir yaradıcılığında gedən proseslər ədəbi dilə təsir göstərmiş, sadəliyə, canlı danışıq elementlərinə meyli güclənmiş, Azərbaycan dilinin yeni inkişaf mərhələsi başlanmışdır. Bu dövrdə Azərbaycan ədəbi dili üslub baxımından da zənginləşmişdir. Elmi üslubun təşəkkülü üçün şərait yaranmış, ayrı-ayrı elm sahələrinə dair bir çox əsərlər meydana gəlmişdir. XIX əsrdə Azərbaycanın ikiyə parçalanması və nəticədə, iki ayrı dövlətin tabeçiliyində bir-birindən fərqli mədəni mühitdə yaşamağa məhkum olması nəticəsində ədəbi dilimizin inkişafı xalqımızın həyatında köklü dəyişikliyə səbəb oldu. Rusiyanın Şimali Azərbaycanda müstəmləkəçilik siyasəti ilə yanaşı, xalqın mədəni səviyyəsinin yüksəlməsində xüsusi rol oynamış, başqa elm sahələri kimi, dilçiliyin də inkişafına zəmin yaratmışdır. Azərbaycan dilinin saflığı məsələsi XIX əsrdən ziyalıları və dilçi alimləri daha çox düşündürməyə başlamış, XIX əsrin ortalarından etibarən Azərbaycan dilinə aid bir sıra dərsliklər və dərs vəsaitləri meydana gəlmişdir.

XX əsrin əvvəllərində ana dilimizin saflığı uğrunda gedən mübarizənin başında böyük yazıçı və ictimai xadim, dilimizin saflığı və hətta varlığı uğrunda mübariz mövqedə çıxış edərək onlarla felyeton yazan Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə nəşr olunan “Molla Nəsrəddin” jurnalının ətrafında birləşən ziyalılar – mollanəsrəddinçilər dayanırdılar. Cəlil Məmmədquluzadənin, dahi bəstəkarımız Üzeyir Hacıbəyovun və digər mollanəsrəddinçilərin bu sahədə yazdığı felyetonlar onun dilimizin saflığı problemilə əlaqədar apardığı mübarizəyə nümunədir.

XX yüzillik Azərbaycan ədəbi dilinin çiçəklənməsi dövrüdür. Ədəbi dil məsələsi hələ əsrin əvvəlindən ictimai-siyasi mübarizənin tərkib hissəsi olmuşdur. Həmin dövrdə ana dilinə dair kitablar hazırlanmış, dərsliklər nəşr olunmuşdur. Azərbaycan dilinin səs quruluşuna və qrammatik sisteminə dair ədəbiyyatlar meydana gəlmişdi. Ana dili uğrunda mübarizənin önündə gedən mətbuatla yanaşı, ədəbi dil normasının müəyyənləşməsində bütün görkəmli ziyalılar iştirak etmişdilər.

Qeyd etdiyimiz kimi, Səfəvilərin hakimiyyəti dövründə Azərbaycan dili dövlət dili səviyyəsinə qaldırılsa da, milli dövlətçiliyin itirilməsi nəticəsində 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədər bu proses uzun bir zaman kəsiyində qırılmışdır. Cümhuriyyət yarandıqdan sonra Azərbaycan dilinin geniş tətbiq olunması yolunda böyük imkanlar açılsa da, Azərbaycan Xalq Cümhuriyyətinin çox qısa, 23 ay ömür sürməsi ana dilimizin cəmiyyətdə dövlət dili kimi mövqelərinin tam bərqərar edilməsinə imkan verməmişdir.

1920-ci ildə hakimiyyət bolşeviklərin əlinə keçdikdən sonra artıq nitqimizə rus sözləri və ifadələri daha geniş sirayət etməyə başladı. Bolşeviklər dilimizi ərəb, fars, türk dillərinin təsirindən çıxardaraq rus dilinin təsiri altına salmağa müvəffəq oldular.

1923-cü ildən latın qrafikalı əlifbaya keçmə prosesi ilə və 1926-cı ildə toplanan I Ümumittifaq türkoloji qurultayından sonra 1 yanvar 1929-cu ildən kütləvi şəkildə latın qrafikasına keçid, qısa müddət ərzində Azərbaycanda bu əlifbanın işlənməsi geniş kütlə arasında savadsızlığın aradan qaldırılmasına əlverişli zəmin yaratsa da, 1 yanvar 1940-cı ildən kiril yazısı əsasında tərtib olunmuş yeni qrafikalı əlifba ilə əvəz olundu.

Xalqımızın keçdiyi bütün tarixi mərhələlərdə ana dilimizə qarşı bir sıra haqsızlıqlar, təzyiq və təhriflər olmuşdur. Bütün bunların aradan qaldırılması üçün bu gün ölkəmizdə kifayət qədər şərait və imkanlar mövcuddur. Lakin bu şərait özü-özünə, asanlıqla yaranmamışdır. Qeyd etmək lazımdır ki, hər bir dili yaşadan və inkişaf etdirən onun mənsub olduğu xalq olduğu kimi, dilin hərtərəfli zənginləşməsi, inkişafı, beynəlxalq səviyyədə nüfuz qazanması isə xalqın böyük övladlarının adı ilə bağlıdır. Tarixboyu Azərbaycanın yetirdiyi belə şəxsiyyət xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Dahi liderimizin xalqımıza irs qoyduğu bu münbit şəraiti və imkanları asanlıqla deyil, şəxsi və siyasi həyatını təhlükəyə atmaq bahasına da olsa, böyük şücaətlə və mübarizlik əzmi ilə yaratmışdır.

Dilimizin hamisi olan Ümummilli Liderimizin dil siyasəti dövlət siyasətinin tərkib hissəsi kimi daim Onun diqqətində olmuş, bu məsələ ilə bağlı dəfələrlə tarixi əhəmiyyətli qərarlara imza atmışdır. Dilimizin yaranma tarixinə, onun keçdiyi inkişaf yoluna və gəlib çatdığı bugünkü imkanları yoluna kiçik bir ekskursiya etsək, dil sahəsində dahi Heydər Əliyevin xidmətlərinin nə qədər misilsiz olduğunu açıq-aydın görmüş olarıq.

Dilimizlə bağlı ən mühüm tarixi hadisə 1969-cu ildə hakimiyyətə gələn Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Təşkilati işlər apararaq, elmi və ziyalı təbəqəni bu işə cəlb edərək öz siyasi taleyini risk altına salmaq bahasına olsa belə, dahi Heydər Əliyev ciddi səylərinin nəticəsində 1978-ci ildə Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırmağa, Konstitusiyanın 73-cü maddəsində təsdiqini tapmasına, Azərbaycan dilinin ilk dəfə olaraq respublika Konstitusiyasında dövlət dili kimi təsbit olunmasına nail oldu. Bu addımla Ulu Öndərimiz milli dirçəlişin əsasını qoydu.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra da dahi liderimiz dilimizlə, onun saflığı, qorunması ilə bağlı mühüm əhəmiyyətli tədbirlər görmüşdür. Milli-mədəni irsimizin əsasında duran ana dilimizlə bağlı bu siyasət məhz dahi şəxsiyyət Heydər Əliyev tərəfindən həyata keçirilirdi. Ulu Öndər Bakı şəhərinin təhsil işçiləri ilə görüşündəki çıxışında deyirdi: ***“Bizim məktəblərimiz millidir. Bilirsiniz ki, mən son vaxtlar Azərbaycanın dövlət dili, ana dili, Azərbaycan dili haqqında bir çox fərmanlar vermişəm. Azərbaycanın latın əlifbasına, latın qrafikasına keçməsi haqqında fərman vermişəm. Bu, artıq avqust ayının 1-dən tətbiq olunubdur. Çox məmnunam ki, mən buna nail oldum. Çünki bəziləri etiraz edirdilər ki, qısa müddətdə buna nail olmaq olmaz. Amma oldu. Bütün dövlət orqanlarında, hakimiyyət orqanlarında yox, təhsildə, səhiyyədə, biznes sahəsində, hər yerdə Azərbaycanın dövlət dili, ana dili, Azərbaycan dili hakim olmalıdır”.***

1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil dövlətimizin Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili elan olunmuşdur. Konstitusiyanın 21-ci maddəsində deyilir: *“Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir”.*

Azərbaycan dilinin milli-mənəvi, siyasi-hüquqi bərpası istiqamətində atılmış vacib addımlardan biri də 2001-ci il 18 iyun tarixdə “Dövlət dilinin işinin tətbiqi təkmilləşdirilməsi haqqında” Fərmanın imzalanması olmuşdur. Fərmanda Azərbaycan dilinin tarixi inkişaf yolları, habelə müstəqil dövlətçilik atributu kimi rolu və funksiyası göstərilmiş, onun geniş tətbiqi vəziyyəti hərtərəfli nəzərdən keçirilmişdir. Eyni zamanda problem və nöqsanlar müəyyənləşdirilərək onların aradan qaldırılması barədə müvafiq tapşırıqlar verilmiş və qəti olaraq 2001-ci il avqust ayının 1-dən latın qrafikalı Azərbaycan əlifbasına keçilməsi qərara alınmışdır. 2001-ci il 9 avqust tarixli “Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında” Fərmanı ilə bu tarix xalqımızın əlamətdar bayramları sırasına daxil olmuşdur. Ulu Öndərin ana dilinin taleyi barədə təməl düşüncələrini şərtləndirən dil quruculuğundakı ideya istiqamətinin bütün dövrlərdə siyasi baxışlara uyğun səviyyədə aparılması istiqamətində atılmış mühüm addımlardan biri kimi 2003-cü il 2 yanvar tarixdə qüvvəyə minmiş “Azərbaycan Respublikasının Dövlət Dili Haqqında” Qanununu qeyd etmək lazımdır.

Uzun bir tarixi dövrdə ayrı-ayrı şəxsiyyətlərin ana dilimizlə bağlı həyata keçirdiyi tədbirləri Ümummilli Liderimizin fəaliyyəti dövründəki tədbirlərlə bir tərəzinin gözünə qoymaq qeyri-mümkündür. Çünki dahi liderimiz bu sahədə elə bir zəncir yaratmışdır ki, o zəncirin halqaları zaman keçdikcə daha da güclənmişdir. Belə ki, vaxtilə gərgin əmək sayəsində ərsəyə gətirilmiş, dövlətçilik siyasətimizin mühüm bir parçası olan dil siyasəti bu gün Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun ana dilinin dövlət dili kimi maneəsiz işləkliyi üçün göstərdiyi siyasi və milli iradə Azərbaycan dilinin nüfuzunun yüksəlməsinə və türk dilləri arasında yüksək mövqe qazanmasına xidmət edir. Prezidentimizin 2004-cü il 12 yanvar tarixli “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”, 2004-cü il 14 yanvar tarixli “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında”, 2007-ci il 30 dekabr tarixli “Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında” sərəncamları ana dilimizə yüksək qayğının qırılmaz halqalarıdır. 2012-ci il 23 may tarixdə “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Azərbaycan dilinin tətbiqi və inkişafı üçün yeni bir addım olmuşdur. Bu sənəddə Azərbaycan dilinin tarixi əsasları barədə mükəmməl təsəvvür yaradılmış və inkişaf problemləri haqqında sistemli şəkildə bəhs edilmiş, Azərbaycan dilinin mənşəyi ilə bağlı davam edən yanlış konsepsiyaya son qoyulması, tarixi faktlara əsaslanaraq Azərbaycan dilinin dövlət dili kimi yaşaması, inkişaf etdirilməsi üçün həm inzibati, hüquqi-siyasi, həm də elmi-nəzəri istiqamətlər müəyyənləşdirilməsinin zəruriliyi qeyd edilmişdir.

Dövlət başçımızın həyata keçirdiyi bütün bu tədbirlər Azərbaycan dilinin bütün ölkə miqyasında – mədəniyyət, elm, iqtisadiyyat, hərb, səhiyyə, siyasət, tədris və təlim sahəsində tətbiq olunmasına xidmət edir.

Günümüzdə Naxçıvan Muxtar Respublikasında da dövlətimizin dil siyasəti uğurla həyata keçirilməkdədir. Ana dilimizdən düzgün istifadə edilməsi, onun qorunması və təbliği daim muxtar respublika ziyalılarının diqqət mərkəzindədir. Naxçıvan şəhərində “Ana dili” abidəsi ucaldılmışdır. Son illər muxtar respublikada dərc olunmuş “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan Abidələri Ensiklopediyası”, 3 cilddə “Naxçıvan folkloru antologiyası”, 3 cildlik “Naxçıvan tarixi” kitabı, xeyli sayda digər nəşrlər tariximiz və mədəniyyətimizlə yanaşı, dilimizin də inkişafına mühüm töhfədir. Naxçıvan Dövlət Universitetində Azərbaycan dili fənni ilə bağlı dərslərin tədrisinə və ixtisaslı kadr hazırlığına xüsusi diqqət yetirilir. Tarix-filologiya fakültəsində Azərbaycan dili və ədəbiyyat ixtisası üzrə bakalavr səviyyəsinin bütün kurslarında fənnin müxtəlif dərəcədə tədrisinin həyata keçirilməsindən başqa xarici dillər fakültəsində, qeyri-ixtisaslarla əlaqəli fakültələrdə Azərbaycan dili, nitq mədəniyyəti dərsləri də yüksək səviyyədə təşkil olunur. Muxtar respublikada iaşə obyektlərinə, mağazalara milli adların verilməsi, reklam lövhələrinin dilimizin qayda-qanunlarına uyğun yazılması, televiziya və radiolarda verilişlərin yayımı, filmlərin nümayişi zamanı ana dilimizin bütün xüsusiyyətlərinə riayət olunması da dilimizin qorunması sahəsində həyata keçirilən mühüm tədbirlərdir.

*Göründüyü kimi, milli varlığımıza xidmət edən, onu dünyəviləşdirən, min bir əziyyət bahasına bugünkü mövqeyə çatdırılan ən dəyərli varlığımız olan ana dilimizi, dövlət dilimizi qorumaq hər birimizin mühüm siyasi-ideoloji vəzifəmiz, əsas milli marağımız olmalı, Azərbaycan dilinin tarixi hüquqlarını qorumaq, onun mənəvi-siyasi nüfuzunu həm ölkə daxilində, həm də ölkə xaricində yüksəltmək, gələcək nəsillərə ötürmək üçün əməli fəaliyyət göstərməli, dahi liderimizin ağır zəhmətlər hesabına həyata keçirdiyi və bizlərə miras qoyduğu dil siyasətini hamılıqla və ləyaqətlə davam etdirməliyik. Çünki Ümummilli Lider Heydər Əliyevin də dediyi kimi:* ***“İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımızın ulu babalardan miras qalan bu, ən qiymətli milli sərvətini hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir”.***

**Leyla SƏFƏROVA**
***“Naxçıvan” Universitetinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru***

*İqtisadiyyatın idarə olunması zamanı əsas tələblərdən biri resurslardan səmərəli istifadə etməklə qarşıya qoyulmuş məqsədlərə çatmaqdan ibarətdir. Bu mənada, planlaşdırılan hər hansı bir layihənin, yaxud işin nəticəsinin əvvəlcədən bilinməsi onların arzuedilən müsbət səmərə verməsi baxımından hər kəs üçün maraqlıdır. Ona görə də müasir menecmentdə sosial-iqtisadi əhəmiyyət kəsb edən istənilən bir hadisənin uzunmüddətli perspektivdə güclü və zəif tərəflərinin öyrənilməsi və onun yaradacağı yeni imkanlar və ya təhlükələrin proqnoz edilməsi kimi təhlillər həm elmi, həm də ictimai maraq kəsb edir.*

**Turizm**

# Naxçıvan-Kükü-Gurbulaq perspektiv turizm marşrutu üzrə GZİT təhlil





Cari il 5 iyun tarixində qəbul olunmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda qeyd olunan GZİT (güclü, zəif, imkanlar, təhlükələr) təhlil dünya təcrübəsində hələ keçən əsrin 60-cı illərində Qərb menecmentində tətbiq edilməyə başlanmış və hazırda praktiki olaraq bütün layihələrin və irimiqyaslı işlərin həyata keçirilməsi öncəsi sahənin mütəxəssisləri və ekspertlər tərəfindən ciddi şəkildə aparılır. GZİT təhlilin əhəmiyyəti nəzərdə tutulan işin həyata keçirilməsi və ya əksinə, onun təxirə salınması, resurslardan istifadə zamanı maksimum səmərəliliyə nail olunması, rəqabətqabiliyyətlilik kimi problemlərin həllində fərdi qərarların ekspert rəyləri ilə möhkəmləndirilməsi ilə izah olunur. Bu zaman təhlil obyektinin gələcəkdəki vəziyyətinə təsir edən xarici amillərlə yanaşı, sistemin özündən qaynaqlanan faktorların da nəzərə alınması, eləcə də hər bir bəndə dair təkliflərin verilməsi GZİT təhlilin üstün cəhətlərindəndir. Bu təkliflərin nəzərə alınması ilə aidiyyəti qurumlar öz işlərini mövcud tələblərə uyğun şəkildə qura bilirlər.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, GZİT təhlil əksər hallarda müsbət nəticə verir. Şübhəsiz, zamanında lazımi təhlil aparılsaydı, Söyüdlükdəki ekoloji problemlər yaranmaz, yaxud Naxçıvandakı tarixi abidələrimizdə aparılmış yarıtmaz bərpa işləri nətcəsində onların orijinal görkəmi korlanmaz, şəhərimizdəki binaların tikintisi və ya təmiri zamanı çoxillik ağaclar lazımsız yerə kəsilməzdi. 2013-cü ildə yenidən tikilməsi haqqında verilmiş rəsmi qərarın əksinə olaraq, nədənsə əvvəlki yerində təmir olunan Kükü kənd tam orta məktəb binasının kənd mərkəzindən, təxminən, 2 kilometr məsafədə qalması, Hacıvar tam orta məktəb binasının yarıtmaz şəkildə təhvil verilməsi, yaxud iri kəndlərdə yalnız bir yerdə ticarət obyektlərinin fəaliyyətinə icazə verilməsi, təəssüf ki, təhlilsiz aparılan belə işlərin nəticəsidir.

Hazırda iqtisadi və sosial məzmunu, ekoloji əhəmiyyəti dərin olan iş və layihələr haqqında aparılan GZİT təhlillər həm dünyada, həm də ölkəmizdəki elmi jurnallarda geniş yer almaqdadır. Ancaq etiraf edək ki, təxminən, 10-15 il əvvəl yüz minlərlə, bəlkə də, milyonlarla manatın israfı ilə nəticələnmiş uğursuz dəvəquşu təsərrüfatı haqqında qəzetimizdə belə bir təhlili məqalə verilsəydi, bu, “razılaşdırılmamış” yazı kimi müəllifə və baş redaktora ən yaxşı halda tənbeh qazandırardı. Odur ki, həmin quru məddahlıq dövrünün artıq arxada qaldığını, dövlətimizin prioritetləri arasında yalnız real, əhali rifahına və strateji hədəflərə yönəlmiş irimiqyaslı işlərin olduğunu nəzərə alaraq adıçəkilən Dövlət Proqramında da qeyd edilən turizm layihələri haqqında GZİT təhlillərin aparılmasını məqsədəuyğun hesab etmək olar. Bu məqalədə son zamanlar əhali arasında populyarlıq qazanmış Naxçıvan-Kükü-Gurbulaq istiqamətindəki perspektiv turizm marşrutu üzrə GZİT təhlilin aparılması, fikrimizcə, turizmyönümlü layihələrin reallaşdırılması baxımından faydalı ola bilər. Qeyd edək ki, bu təhlil sırf müəllifin düşüncələrini əks etdirməklə, digər mütəxəssislərin də fikirlərinə açıqdır.

## Naxçıvan-Kükü-Gurbulaq perspektiv turizm marşrutu üzrə GZİT təhlil

| Güclü tərəflər | Bu xüsusiyyətlərdən istifadə imkanları |
|---|---|
| • Naxçıvan-Kükü-Gurbulaq marşrutu güclü turist marağı cəlb edən yeni bir istiqamətdir | • Bundan istifadə etməklə yeni turist seqmentini bu istiqamətə cəlb etmək mümkündür |
| • Marşrutun başlanğıc və son nöqtəsi arasındakı məsafə cəmi 55 kilometrdir | • Gurbulağı və Şahbuzun digər gözəlliklərini görmək üçün birgünlük turlar təşkil etmək mümkündür |
| • Kükü kəndi və Dərələyəz silsiləsinin cənub yamaclarının iqlimi qışda ılıq, yayda sərindir | • Bölgə istiqamətində təkcə yayda deyil, ilboyu turlar təşkil etmək mümkündür |
| • Naxçıvandan Kükü kəndinə qədər olan 50 kilometr məsafə tam asfaltla örtülüdür | • Kəndə qədər turistlərin lüks mikroavtobuslarla səyahəti mümkündür |
| • Kükü kənd mərkəzindən Gurbulaq şəlaləsinə qədər olan 5 kilometr torpaq yolda hamarlanma və çınqıl döşənmə işləri aparılmış, yol yatağı genişləndirilmişdir | • Kənddən şəlaləyə qədər istənilən avtomobillə getmək mümkündür |
| • Şəlalə ətrafı ərazilər ekoloji təmiz, landşaft gözəllikləri baxımından cazibədardır | • Burada ekoturizm, fotoovçuluq və dırmanma kimi fəal istirahət növləri təşkil etmək olar |
| • Kükü kəndində turistləri yerləşdirmək üçün lüks kənd evləri və kiçik kotteclər vardır | • Kəndə gələn turistlər bir neçə gün burada qala bilərlər |
| • Kükü dağı və onun cənub yamacları çox sayda şirinsulu bulaqlar və dərman bitkilər ilə zəngin olub, havası çox təmizdir | • Bundan istifadə edərək ərazidə herbal və müalicə turizmi üzrə turlar təşkil etmək olar |
| • Kükü kəndində bağçılıq, bostançılıq və heyvandarlıq inkişaf etmişdir | • Kəndə gəlmiş turistlərə yaddaqalan qida və qastronomi xidmətləri təklif etmək olar |

| Zəif tərəflər | Bunların azaldılması yolları |
|---|---|
| • Kükü kəndində və ümumiyyətlə, Şahbuz rayonunda yağıntının həcminin və qar örtüyünün çox olması | • Buna uyğun infrastrukturun yaradılması, yol örtüyünə xidmət göstərilməsi |
| • Kənd ərazisində ticarət, iaşə, ixtisaslı rekreasiya və bələdçi xidmətlərinin zəif olması | • Yerli sahibkarlara dəstək olunması |
| • Gurbulaq şəlaləsi ətrafında turistlərin istifadə edə biləcəkləri sosial-mədəni xidmətlər yoxdur | • Şəlalə ətəyindəki sahədə kompleks xidmət sahəsi yaradılmalıdır |
| • Turistlərə xidmət göstərəcək yerli xidməti işçilər azdır | • Bunun üçün yerli gənclərin hazırlanması və treninq keçirilməsi mümkündür |
| • Kükü-Gurbulaq istiqaməti Şahbuzun Batabat istiqaməti ilə müqayisədə nisbətən az tanınır | • Destinasiyanın tanıdılması üçün reklam və marketinq işləri genişləndirilməlidir |

| İmkanlar | Bunların daha da genişləndirilməsi yolları |
|---|---|
| • Kükü-Gurbulaq istiqamətində turların təşkili bölgədə işgüzar aktivliyi artıra bilər | • Bölgədə işgüzar fəallığın daha da artırılması üçün yeni istehsal və xidmət obyektləri üzrə kiçik sahibkarlığın genişləndirilməsi |
| • Kükücə turizmin inkişafı kənddə sosial-mədəni servislərin, restoran xidmətinin genişlənməsinə səbəb olar | • Bu sahədə işlər görmək istəyən sahibkarlara dəstək göstərilməsi |
| • Bölgəyə turistlərin səfərlərinin çoxalması, təkcə Kükü kəndinin deyil, bu istiqamətdəki digər yaşayış məntəqələrinin də sərnişin nəqliyyatı problemlərinin həllinə kömək edər | • Sərnişin nəqliyyatının müntəzəm və komfortlu işləyə bilməsi üçün lazımi təşkilati tədbirlər və islahatlar aparılması |
| • Küküyə gəlmiş turistlər kənddə aqroturizmin də inkişafına səbəb olar, orqanik kənd təsərrüfatı məhsullarının satışına imkanlar yaradar | • Kənd və aqroturizm məzmunlu treninqlər keçirilməsi, satış köşklərinin yaradılması |
| • Kəndə gəlmiş turistlərə göstərilən sosial-mədəni xidmətlər kəndli gənclərin işlə təmininə və onların öz yaşayış yerlərində daimi məskunlaşmasına imkanlar yarada bilər | • Mövsümi turizm xidmətlərinin ilin 12 ayına yayılması üçün yollar axtarılması |
| • Turistlərin axınının çoxalması ilə əhalinin həyat tərzində komfort elementlərinin artmasına maraq yarana bilər | • Komfortlu yeni evlərin tikilməsi üçün layihələrin hazırlanması |
| • Unudulmuş xalq sənətkarlığının (xalçaçılığın, dəmirçiliyin, dülgərliyin və sair) dirçəldilməsi | • Bunun üçün sənətkarlara dəstək olunması |

| Təhlükələr | Bu təhlükələrin azaldılması istiqamətləri |
|---|---|
| • Şəlalə ətrafında ekoloji vəziyyətin korlanması | • Bunun qarşısının alınması üçün turların təşkil olunması, əraziyə ciddi bələdiyyə nəzarətinin artırılması |
| • İstirahət yerlərinin tikilməsi və kənddə ərazi almaq tələbatının artması ilə torpağın qiymətinin yüksəlməsi | • Yerli sakinlərin özlərinin turizm xidmətləri göstərməyə həvəsləndirilməsi |
| • Ənənəvi təsərrüfatçılığın unudulması | • Turizm xidmətləri ilə yanaşı, ənənəvi sahələrin də rentabelli fəaliyyəti üçün ailə təsərrüfatlarına dəstək olunması, yerli məhsulların satışına şərait yaradılması |
| • Gənclər arasında yüngül həyat tərzinə meyil | • Turistlərin qrup halında səfərlərinin təşkil olunması |
| • Nisbətən dar kəndarası yollarla yüksək sürətlə hərəkət edən avtomobillərin yarada biləcəyi qəzalı vəziyyətlər | • Müvafiq orqanların burada nəzarətinin artırılması |
| • Su mənbələrinin tullantılarla çirkləndirilməsi | • Nəzarətin artırılması və cərimə tətbiqi |
| • Turistlərin açıq məkanlarda vəhşi heyvanlar və sürünənlər tərəfindən həyatlarına təhlükə olması | • Yürüş və gecələmələr zamanı xüsusi hazırlıqlar aparılması |
| • Turist qrupları arasında və turistlərlə yerli əhali arasında potensial münaqişələrin yaranması | • Bunun üçün tur qrupların peşəkarlar tərəfindən təşkili və bələdçilik edilməsi |
| • Səhv menecment nəticəsində ərazinin turizm imicinin korlanması | • Ərazidə turizmin strateji hədəfləri istiqamətində aidiyyəti icra orqanları və kənd icması ilə birgə fəaliyyət |

**✍ Əli CABBAROV**
**iqtisad elmləri üzrə fəlsəfə doktoru**

# Naxçıvanda ilk dəfə Aqro festival keçiriləcək

Festival Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə 25-26 avqust tarixlərdə keçiriləcək. Festivalda müxtəlif kənd təsərrüfatı texnikaları, toxum, gübrə və digər istehsal vasitələrinin, o cümlədən kənd təsərrüfatı məhsullarının nümayişi və satışı həyata keçiriləcək. İştirak və ziyarət etmək istəyən şəxslər onlayn olaraq *office@nagro.gov.az* elektron ünvanına yaza və ya aşağıdakı nömrələrlə əlaqə saxlaya bilərlər:

*060-596-69-62*
*(036)545-02-62*

Sonda festival ziyarətçilərinin rəyi ilə sertifikartlar təqdim olunacaq.

Diqqətə çatdıraq ki, festivalda iştirak etmək istəyən şəxslərə bilet əldə edilməsi və hotel seçimində istiqamət veriləcək.

Son qeydiyyat günü 10 avqustdur.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***



*Ötən günlərdə qəzetimizdə Naxçıvan Dövlət Universitetinin Tibb ixtisası tələbələrinin qardaş Türkiyə Respublikasının bir neçə ali təhsil müəssisəsində keçdikləri istehsalat təcrübəsi və onların maraqlı təəssüratları barədə geniş məqalə dərc etmiş, bu sahədə kadr hazırlayan peşəkar alimlərimizin müsahibəsindən yola çıxaraq ali təhsil ocağında yaradılan geniş tədris infrastrukturu haqqında maraqlı söhbət təqdim etmişdik. Budəfəki yazımızda da Naxçıvan Dövlət Universitetinin gələcək uğurlarının təminatçısına çevriləcək ingilisdilli Tibb ixtisasının açılması barədə ali təhsil ocağının alimlərindən aldığımız geniş müsahibəni oxucularımıza təqdim edirik.*

# İngilisdilli Tibb ixtisasının açılması Naxçıvan Dövlət Universitetinin bu sahədəki kadr potensialının formalaşmasına böyük töhfə verəcək



İlk müsahibimiz Naxçıvan Dövlət Universitetinin gənc alimi, tarix üzrə fəlsəfə doktoru, ali təhsil ocağının Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru ***Arzu Abdullayev*** diqqətə çatdırdı ki, universitetimiz nəinki ölkəmizin ali məktəbləri, həm də dünya universitetləri sistemində yüksək nüfuzu, hərtərəfli inkişafı, yüksəkixtisaslı kadrların hazırlanması sahəsindəki fəaliyyəti ilə tanınır. Təsadüfi deyildir ki, Naxçıvan Dövlət Universiteti bir sıra sahələr üzrə ali təhsil müəssisələri arasında öncül yerləri tutmuş, onun fəaliyyəti təqdir olunmuş, klassik universitetlərlə müqayisə edilmiş, regionun elm və təhsil mərkəzlərindən biri kimi nüfuz qazanmışdır. Universitetdə inkişaf etmiş ali təhsil müəssisələri üçün xarakterik sayılan bütün struktur bölmələr yaradılmış, ilk dəfə burada müxtəlif yeniliklər tətbiq olunmuş və onların səmərəli fəaliyyəti təmin edilmişdir. Bunu universitetin istər beynəlxalq əməkdaşlıqlarının daha dinamik olaraq davamlılığında, iqtisadi, sosial, tibbi və digər mövzular üzrə ortaq elmi araşdırmaların uğurla həyata keçirilməsində, elmi konfransların təşkil olunmasında, eyni zamanda daha mütərəqqi layihələrin reallaşmasında daha açıq şəkildə görmək olar.

Arzu Abdullayev ali təhsil ocağının son dövrlərdə qazandığı uğurlardan danışaraq deyir: – Naxçıvan Dövlət Universiteti 3 ildir ki, Böyük Britaniyanın “Times Higher Education”, “Impact Rankings” reytinq cədvəlində dünyanın ən yaxşı universitetləri arasında yer alır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda Naxçıvan Dövlət Universitetinin də qarşıdakı mərhələlər üzrə perspektivləri müəyyən olunub. Universitetin tədris imkanlarının daha da etibarlı qaydada olmaqla şaxələndirilməsi, ixtisaslaşma proseslərinin təkmilləşməsi və ali məktəblərarası qarşılıqlı əməkdaşlıqlar mühüm məsələ olaraq müəyyən edilib. Eyni zamanda görüləcək işlər nəticəsində universitetlə digər ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlıqların gücləndirilməsi, birgə proqramların təşkil olunması, həmçinin ali təhsil müəssisələrində yeni məzmunlu proqramların reallaşması üzrə layihələrin həyata keçirilməsi nəzərdə tutulub. Qarşıya qoyulmuş əhəmiyyətli məsələlərdən biri də Naxçıvan Dövlət Universitetində ingilisdilli Tibb fakültəsinin, tibbi tədqiqat klinikasının yaradılmasından ibarət olacaqdır. İnkişafın hazırkı mərhələsində Naxçıvan Dövlət Universitetinin fakültələri üzrə tədrisi ingilis dilində olmaqla fənlərin tədrisinə başlanılıb və uğurlu nəticələr qa-



zanılıb. Burada tibb sahəsindəki ixtisaslaşmanın da beynəlxalq təcrübəyə inteqrasiya olunması aktuallıq kəsb edəcəkdir. Belə ki, ali məktəbimiz tərəfindən 2023-2024-cü tədris ilindən etibarən ingilisdilli Tibb ixtisasına tələbə qəbulu elan edilib.

Arzu müəllimdən bu yeniliyin hansı prioritet məqsəd daşıdığını soruşuruq. Müsahibimiz cavabında deyir: – Dünyada qloballaşma gedir və bir sıra yeni innovativ, modern ixtisaslar yaranır. Bununla bərabər, ənənəvi ixtisaslar da qloballaşmanın bir hissəsinə çevrilir. İngilis dili artıq dünyanın əsas dillərindən biri kimi istifadə olunur. Təhsil ingilis dilində aparılan fakültələrin məzunları üçün gələcək iş perspektivləri daha asan, rahat olur. Onların işlə təmin olunma prosesləri çox sürətlə gedir. Belələri nəinki Azərbaycan sferasında, o cümlədən beynəlxalq şirkətlərdə, xarici ölkələrdə də işlə təmin edilmək imkanına sahib olurlar. Eyni zamanda ingilis dilində təhsil alan tələbələrin bu ixtisas üzrə Avropanın müxtəlif universitetləri ilə ikili diplom layihələrini həyata keçirməyə, mübadilə proqramları əsasında xarici ölkələrdə təhsil almalarına, tədqiqat aparmalarına geniş imkanlar yaradılacaq.

Ali təhsil ocağının Beynəlxalq əlaqələr üzrə prorektoru ***Aidə Cəlilzadə*** ilə söhbətimizi davam etdiririk. Aidə xanım ilk olaraq ali təhsil ocağında yaradılan və ölkə universitetləri içərisində bir ilk olan SAT imtahan mərkəzi barədə məlumat verərək deyir ki, Naxçıvan Dövlət Universitetinin SAT qeydiyyat və imtahan mərkəzinin fəaliyyəti təkcə regionumuzda deyil, ümumilikdə, Azərbaycanın digər regionlarından və hətta qonşu ölkələrdən olan əcnəbi vətəndaşlar üçün də nəzərdə tutulub. Belə ki, bu mərkəz Amerika universitetlərinə, ümumilikdə, beynəlxalq təhsil arenasına açılan qapıları daha əlçatan edəcək və gənclərimizin arzularını reallaşdırmasına vasitə olacaqdır. 7 oktyabr 2023-cü il üçün SAT qeydiyyat və imtahan tarixi kimi müəyyənləşdirilib. Qeydiyyat 22 sentyabradək davam edəcək.



Aidə xanım söhbətimizə davam edərək deyir: – Azərbaycan ali təhsil müəssisələri üçün ilk olan Naxçıvan Dövlət Universitetinin ingilisdilli Tibb ixtisasına qəbul həm yerli, həm də əcnəbi tələbələr üçün nəzərdə tutulub. Tədris prosesində müəllim kontingentinə olan tələbatı tamamlamaq məqsədilə xarici ali təhsil müəssisələrindən olan professorlar və mütəxəssislər dəvət olunub. Tibb ixtisasının ingilis dilində tədrisi həm xarici ölkə universitetləri ilə əməkdaşlıqların fərqli prizmada inkişafı, həm də məzunlarımızın daha peşəkar mütəxəssis kimi yetişmələri baxımından da əhəmiyyət kəsb edir. Gələcəkdə bu ixtisasın məzunlarının regionumuzla yanaşı, xaricdə fəaliyyətinin də şahidi olacağıq. Məqsədimiz beynəlxalq standartlara və keyfiyyət kriteriyalarına cavab verən peşəkar kadrlar yetişdirməkdir.

Müsahibimiz onu da diqqətə çatdırır ki, Naxçıvan Dövlət Universitetində SAT qeydiyyat və imtahan mərkəzinin fəaliyyətə başlaması, ingilisdilli Tibb ixtisasının açılması, növbəti illərdə isə yeni tibb kampusunun, tibbi tədqiqat klinikasının yaradılması 2023-2027-ci illəri əhatə edən Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında icrası nəzərdə tutulan prioritetlərdəndir. Məsələlərin həlli Dövlət Proqramında nəzərdə tutulan beynəlxalq əlaqələrin inkişafı, beynəlmiləlləşmə siyasəti kimi digər prioritetlərin icrasına zəmin yaratmış olacaq. İcrası nəzərdə tutulan məsələlər Naxçıvan Muxtar Respublikasının timsalında regionun, ümumilikdə isə Azərbaycanın, beynəlxalq əlaqələrimizin dinamik inkişafına təkan verəcəkdir.

Naxçıvan Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, dosent ***Elsevər Əsədov***la bu mövzuda söhbətimizi davam etdiririk. Elsevər müəllim bir daha ixtisasın yaranma zərurətini diqqətimizə çatdıraraq deyir ki, Naxçıvan Dövlət Universiteti 2023-2024-cü tədris ili üçün ilk dəfə olaraq ingilis dilində Tibb ixtisası üzrə tələbə qəbulu elan edib. İxtisas üzrə müsabiqədə həm ali məktəblərə qəbul imtahanlarının nəticələri əsasında yerli abituriyentlər, həm də universitetin hazırlıq kurslarında təhsil alan əcnəbi tələbələr iştirak edə bilərlər. İngilis dilində Tibb ixtisası üzrə dərslər xarici dildə tədris üçün hazırlanmış yerli kadrlar və xaricdən dəvət olunan mütəxəssislər tərəfindən tədris olunacaq. Bu ixtisasda təhsil alan tələbələrin hər tədris ilinin sonunda universitetin əməkdaşlıq etdiyi xarici ölkə universitetlərinin, xüsusilə tədrisi ingilis dilində olan universitetlərin klinikalarında təcrübə keçmələri nəzərdə tutulur.

Elsevər müəllim deyir ki, Naxçıvan Dövlət Universiteti nəzdində yaxın zamanlarda müasir standartlara cavab verən Tibbi Tədqiqat Klinikası, Tibb fakültəsi, Stomatologiya fakültəsi, Tibb kolleci və bir sıra sosial infrastrukturu özündə cəmləyən yeni tibb kampusunun qurulması xarici dillərdə tibbi kadrların hazırlanması üçün geniş imkanlar yaradacaq və əsaslı baza rolu oynayacaq. İngilis dilində Tibb təhsili sonrakı təhsil səviyyələrində yüksəkixtisaslı kadr kimi formalaşmaqda Avropa universitetlərində rezidentura və ya uzmanlıq təhsili üçün geniş imkanlar yaradacaq.

*Uzun illərdir ki, muxtar respublikamızda savadlı, bilikli kadrların hazırlanmasında böyük xidmətlər göstərən Naxçıvan Dövlət Universiteti artıq ölkə hüdudlarından kənarda da nüfuzlu təlim-tədris ocağı kimi tanınır. Onu da diqqətə çatdıraq ki, Naxçıvan Dövlət Universiteti, ötən günlərdə yayılan beynəlxalq xəbərlərə əsasən Webometrics Ranking of Word Universitiesin 2023-cü il sıralamasında 15-ci yerdə qərar tutub. Bu, ali təhsil ocağının dünya sıralamalarında qazandığı növbəti uğurlardan biridir. Universitetin əldə etdiyi hər bir müvəffəqiyyətə görə ürəkdən sevinir, kollektivi təbrik edir, daha böyük uğurlar arzulayırıq.*

**✍ Məcid RƏŞADƏTOĞLU**

## Hesabat-seçki yığıncağı keçirilib



Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının hesabat-seçki yığıncağı keçirilib. Gündəlikdə duran məsələlər federasiyanın fəaliyyəti, görülən işlərin müzakirəsi, eləcə də federasiyaya yeni sədrin seçilməsi olub.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Məcid Seyidov çıxış edərək deyib ki, nazirlik gənclərin sağlam həyat və düşüncə tərzinə uyğun formalaşması, vətənpərvərlik və milli dəyərlərə hörmət ruhunda böyüməsi, onların şəxsi inkişafına dəstək göstərilməsi, bədən tərbiyəsi və idmanın kütləviliyinə, ümumi inkişafına nail olunması, eləcə də federasiyalarla işin düzgün təşkili baxımından fəaliyyətini daha da gücləndirməyə çalışır. Nazir müavini Naxçıvan Muxtar Respublikası Futbol Federasiyası ilə işgüzar əlaqələrin daha da güclənəcəyinə, birgə və məqsədyönlü fəaliyyət sayəsində Naxçıvan futbolunun inkişafı yolunda yeni uğurların əldə olunacağına inamını ifadə edib.

Federasiyanın sədr müavini Sakit Rzayev qurumun ötənilki fəaliyyəti barədə ətraflı məlumatı diqqətə çatdırıb.

Sonra səsvermə olub. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayevin federasiyanın sədrliyinə namizədliyi irəli sürülüb. Təklif yekdilliklə qəbul olunub və Qəzənfər Abdullayev federasiyasının sədri seçilib.

Federasiyanın yeni sədri göstərilən yüksək etimada görə minnətdarlığını ifadə edərək, Naxçıvan futbolunun inkişafı və uğurlu gələcəyi üçün federasiya kollektivi ilə birgə maksimum çalışacaqlarını bildirib, yaxın gələcək üçün qarşıya qoyulan vəzifə və tapşırıqların icrası istiqamətlərindən bəhs edib.

Çıxışlardan sonra qərar layihəsi təsdiq olunub.

## Elbrus Kərimlinin karyerasında ilk Avropa medalı



Rumıniyanın Ployeşti şəhərində keçirilən yeniyetmə boksçular arasında Avropa birinciliyində yarımfinal mərhələsinə yekun vurulub. 32 ölkədən 378 (260 oğlan, 118 qız) boksçunun qatıldığı yarışda Azərbaycan millisinin üzvləri də iştirak ediblər.

Şotlandiya, İtaliya və Türkiyədən olan rəqiblərini məğlub etməklə yarımfinala yüksələn millimizin üzvü, Naxçıvan idmançısı Elbrus Kərimli 3 qələbənin ardınca növbəti cəhddə David Jiqjjavinlə (Ukrayna) görüşüb. Görüş rəqibin üstünlüyü ilə yekunlaşıb. Buna baxmayaraq, yarımfinala adlamaqla minimum bürünc medalı özü üçün təmin edən idmançımız mükafatçılar sırasına düşüb. Bununla da Elbrus Kərimli karyerasında ilk dəfə çıxış etdiyi qitə birinciliyini uğurla tamamlayıb. O, oğlanların yarışında millimizə yeganə medal qazandıran boksçu olub. İlkanə Əhmədova isə qız boksçular arasında üçüncü olub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 31 iyul 2023-cü il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 689 | 689 | 1478,2 | 21,5 |
| 2. | Şərur rayonu | 4189 | 4184,4 | 16149,6 | 38,6 |
| 3. | Babək rayonu | 6886 | 5883 | 11766 | 20 |
| 4. | Ordubad rayonu | 856 | 856 | 1185 | 13,8 |
| 5. | Culfa rayonu | 2181 | 1821,7 | 2420,6 | 13,3 |
| 6. | Kəngərli rayonu | 3780 | 3584 | 8422 | 23,5 |
| 7. | Şahbuz rayonu | 756 | 580,2 | 523,8 | 9 |
| 8. | Sədərək rayonu | 1910 | 1880,6 | 6792 | 36,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **21247** | **19478,9** | **48737,2** | **25** |

### *İtmişdir*

Ordubad rayonunun Dəstə kəndində yaşamış Məmmədov Gülməmməd Lətif oğlunan adına olan evin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Allahverdiyev Yaqub Yusif oğlunun adına olan M.S.Ordubadi küçəsi 7 ünvanında 3638 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 446